DOI: 10.30546/2616-4418.30.2024.012 http://www.ejsr.org

# ÖZBƏKİSTANDA YAŞIL ARTIM: KARBON-NEYTRAL İNKİŞAFIN PERSPEKTİV YAŞIL PRİORİTETLƏRİ

**Maqsud QULİYEV**
*Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan*

## Giriş

Mərkəzi Asiyanın ürəyində yerləşən Özbəkistan 1 sentyabr 1991-ci ildə öz müstəqilliyini əldə etmişdir. Zəngin karbohidrogen resurslarına malik Özbəkistan hələ sovetlər dönəmində iri təbii qaz istehsalçısı olan ölkələrdən biri idi. Bu gün də karbohidrogen ölkənin enerji təminatında mühüm rol oynayır. Yeni enerji növləri sayılan günəş və külək enerji potensialı isə qiymətləndirmələrə görə çox nəhəngdir. Bu baxımdan Özbəkistanda yaşıl artım və yaşıl enerjidən istifadəyə keçidin aktuallığını nəzərə alaraq tədqiqat aparılması məqsədəuyğundur.

## Özbəkistanın yaşıl enerji potensialı və karbon emissiyası

Yaşıl enerjiyə keçid üçün qlobal şəkildə müzakirələr, onun müsbət və mənfi tərəfləri üzərində qızğın debatlar aparılır. Qlobal iqlim dəyişikliyi üzrə mübarizədə

CC BY NC ND

dünya dövlətləri istixana effekti yaradan qaz (GHG) emissiyasının azaladılması və qlobal istiləşməni 1.5 C dərəcə azaltmağı planlaşdırır. Bərpa olunan enerji resursları bu istiqamətdə ən optimal resurs kimi görünür. Özbəkistan da dünya birliyinin nüfuzlu üzvü olaraq alternativ enerjiyə keçidi sürətləndirmək üçün əməli-praktiki addımlar atır. Hesablamalara görə 520-1000 qiqavat külək, 3000 qiqavatadək günəş enerji potensialı mövcuddur. Dövlət tərəfindən 2019-2030-cu illəri əhatə edən yaşıl iqtisadiyyata keçid strategiyası qəbul olunmuşdur (Dimovska). Strategiyaya əsasən dayanıqlı və inklüziv iqtisadi inkişaf, sosial tərəqqi, GHG emissiyasının azaldılması, ətraf mühitin qorunması və iqlim dəyişiklikliyi ilə bağlı prinsiplər yaşıl iqtisadiyyat konseptinə müvafiq surətdə hazırki iqtisadi sistemin strukturlarına inteqrasiya ediləcəkdir. Hətta qeyd etmək yerinə düşər ki, Özbəkistan yaşıl enerjiyə keçid ilə əlaqədar ilk dəfə Milli Töhfələr adlı sənəd qəbul etmiş, sonradan qarşıya qoyulan hədəf göstəriciləri daha da yüksəltmişdir. İkinci eyni sənəd ümumi daxili məhsulun (ÜDM) strukturunda hər bölmə üzrə GHG emissiya həcminin 35% azaldılmasını özündə ehtiva edir (Kozybay).

Ölkədə karbon emissiyasının illər üzrə total həcmi, adambaşına karbon emissiyası və ölkədə karbonun daha çox hansı mənbələr hesabına formalaşması ilə əyani surətdə tanış olmaq üçün Şəkil 1-ə nəzər yetirmək lazımdır.




**Şəkil 1.** Özbəkistanda karbon emissiyası (Ritchie et al.)
*(Müəllif tərəfindən hazırlanıb)*

Şəkil 1 Özbəkistanda karbon emissiyası barədə ətraflı məlumatları özündə əks etdirir. Bu məlumatlara əsaslanaraq deyə bilərik ki, 2002-2021-ci illərdə karbon emissiyası başlanğıc ildən 127.52 milyon tondan müxtəlif dövrlərdə artıb-azalmalar daxil olmaqla 2021-ci ildə 121.63 milyon tona enmişdir və ümumi dünya üzrə karbon emissiyasının 0.33% Özbəkistana məxsusdur. Qeyd olunan dövrdə ən az emissiya 2010 və 2015-ci illərdə müşahidə olunmuşdur. Ölkədə adambaşına CO2 emissiya həcmi 3.6 tondur. Əsas məsələ Özbəkistanda karbon emissiyasının hansı mənbə hesabına formalaşmasıdır. Şəkil 1 göstərir ki, 2021-ci ildə emissiya həcminin ən böyük hissəsi 96.18 milyon ton göstərici ilə təbii qazdan yaranmışdır. İkinci yerdə neftdir, burada həcm 11.81 milyon tondur. Üçünücü və dördüncü yerlər isə kömür və sementə məxsusdur və bu göstərici müvafiq olaraq 8.08 və 4.68 milyon tondur. Adambaşına karbon emissiyası 2021-ci ildə 3.6 ton təşkil etmişdir.

Təbii qazdan yaranan CO2 emissiya səviyyəsinin yüksək olması isə təsadüfi deyildir. Özbəkistan təbii qaz resursları ilə zəngin ölkədir və elektrik enerjisinin istehsalında təbii qazdan olduqca geniş istifadə olunur. Ölkədə qazın istehslak səviyyəsi 50-55 milyard kubmetr arasında dəyişir. Son 2022-2023-ci ilin qış aylarında yaranan enerji böhranı ölkədə qaz şəbəkəsinin modernizasiyaya ehtiyacı olduğu özünü göstərdi. Soyuq aylarda yaranan çətinlik zamanı Özbəkistan qonşu ölkə Türkmənistdan qaz, Qırğızıstandan isə kömür idxal etmişdir.

## Özbəkistanda yaşıl enerji layihələri

Özbəkistanın yaşıl enerjiyə keçidi təkcə karbon emissiyasının azaldılmasını deyil, eyni zamanda ekolji cəhətdən təmiz enerjiyə keçidi və bunun nəticəsində təbii qaza qənaət məqsədini özündə cəmləşdirir. Bu istiqamətdə dövlət öz qarşısına artıq strategiya və məqsəd qoymuşdur. Yaşıl iqtisadiyyat modelinə inteqrasiya yolunda ilk öncə ölkədə yaşıl enerji infrastrukturu yaradılmalıdır. Artıq bərpa olunan enerji sahəsində fəaliyyət göstərən şirkətlərlə müqavilələr bağlanmışdır. Bu siyahıya daxil olan şirkətlər əsasən ACWA Power və Masdar şirkətləridir. Razılaşmalara əsasən elektrikin alış qiyməti 25 illik fiksə olunmuş tariflə hesablanacaqdır (Sultanov). Ona görə özəl şirkətlərdən əlavə beynəlxalq institular da Özbəkistanda yaşıl enerjiyə sərmayə yatırmaqda maraqlıdırlar. Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Avropa İnvestisiya Bankı və Dünya Bankı bərpa olunan enerji layihələrində aktiv iştirak edirlər. Ölkədə yaşıl enerji layihələri barədə geniş məlumat Şəkil 2-də göstərilmişdir.




**Şəkil 2.** Özbəkistan regionlarında yaşıl enerji layihələri (Sultanov; Otabaev)
*(Müəllif tərəfindən hazırlanıb)*

Şəkil 2-də külək, günəş və kombinə olunmuş (dövri qaz turbini ilə) alternativ enerji layihələrinin Özbəkistanın hansı regionlarında və hansı meqavatda (MVt) həyata keçirildiyini göstərir. Ölkənin günəş enerji potensialının Surxandərya, Səmərqənd və Cizzax regionlarında böyük olması məhz ondan bəllidir ki, iri günəş enerji layihələri burada icra olunur. Belə ki, Surxandərya 450 MVt, Səmərqənd və Cizzax regionlarında 220 MVt günəş foto-voltaik layihələri icra olunacaqdır. Özbəkistanda ilin təxminən 320 günü günəşlidir (Adilov et al.). Bu baxımdan təkcə xəritədə adları göstərilən regionların deyil, məsələn, Səmərqənd regionunun cənubunda yerləşən Qaşqadərya regionu kimi digər bölgələrin də günəş enerjisi sahəsində iri potensialı mövcuddur.

Külək enerji potensialının nə qədər böyük olduğu da şəkil 2-də göstərilən xəritədən bəllidir. Qaraqalpaqıstan ərazisində 1500 MVt gücündə ölkə üzrə ən böyük külək enerji layihəsi realizə olunacaqdır. Navoiy regionunda hər biri 500 MVt gücündə 2 külək enerji və 100 MVt günəş foto-voltaik layihəsi implementasiya ediləcək. Digər iri külək enerji layihəsi Buxara regionundadır, 500 MVt gücündə. Sırdərya regionunda isə 1500 MVt kombinə olunmuş qaz turbini ilə layihə gerçəkləşdiriləcəkdir. Bütün adları çəkilən layihələrin nəhəngliyi Özbəkistanın yaxın gələcəkdə yaşıl enerjidən istifadə imkanlarını artıracaqdır. Artıq 2030-cü il üzrə qoyulan hədəfə uyğun olaraq yaşıl enerjinin ümumi elektrik istehsalında payının 30%-ə çatdırılması üzrə işlər gedir və yuxarıda göstərilən layihələr o cümlədən, qarşıdakı illərdə yeni layihələrin də bu siyahıya qatılması ilə yaşıl enerjiyə keçid reallaşacaqdır.

2023-cü ilin oktyabrında Dünya Bankı ilə Özbəkistan arasında dəyəri 46.25 milyon ABŞ dolları olan "Enerji Keçidi Layihələri üçün İnnovativ Karbon Resurslarının Tətbiqi" barədə razılaşma imzalandı. Bu layihə Dünya Bankının "Transformativ Karbon Mənfəət Mexanizmi" təşəbbüsü çərçivəsində həyata keçirilir və bu təşəbbüslə qlobal səviyyədə ödənişlərlə emissiya azaldılması islahatları dəstəklənir. 2027-ci ilədək 60 milyon ton karbon emissiyası azaldılacaq və il ərzində 2-2.5 milyon ton karbon satışı gerçəkləşdiriləcək. Geri qalan hissə isə beynəlxalq karbon marketlərində bu sistem vasitəsilə satılacaq (Uzbekistan to cut fossil fuel subsidies and reduce emissions with support from World bank).

2022-2026-cı illər üzrə qəbul olunan strategiyaya əsasən yaşıl enerjinin, xüsusilə yaşıl hidrogen texnologiyasının inkişaf etdirilməsi nəzərdə tutulur. Bu çərçivədə yeni texnologiyaların (hidrogen mənimsəyən, metal hidrid daşıyıcıları, hidrogen istehsalı üçün nanokatalizatorlar və günəş enerjisi ilə işləyən elektroliz) inkişafı, eyni zamanda gənc alim və mütəxəssislər üçün nüfuzlu xarici tədqiqat mərkəzləri və universitetlərində elmi təcrübələrin təşkili nəzərdə tutulur. Hidrogen enerjisi sahəsində onun istehsalı, saxlanması və nəqli texnologiyalarının yaradılmasına yönəlik tədqiqat və inkişaf proqramının bir hissəsi olaraq aşağıdakıların formalaşdırılması nəzərdə tutulmuşdur (Quliyev, 72):

1. *Ammonyak və hidrogen yanacaq elementlərindən istifadə edən hidrogenlə işləyən nəqliyyat vasitəsinin eksperimental prototipi;*

2. *Yaşıl hidrogen yanacağından istilik və elektrik enerjisi istehsalı üçün nəzərdə tutulmuş eksperimental-pilot qurğu;*

3. *Hidrogen enerjisi sahəsində standartların, qaydaların və təlimatların formalaşdırılması və tətbiqi üçün metodologiyalar.*

### Dekarbonizasiya istiqamətində yaşıl prioritetlər

Yuxarıda aparılan təhlillər zamanı qeyd olundu ki, elektrik enerjisinin istehsalında təbii qaz mühüm rol oynayır. Təbii qazın enerji istehsalında istehlak səviyyəsinin yüksək olması və enerji şəbəkəsinin yenilənmə ehtiyacı ölkənin ucqar regionlarının enerji ilə təminatının zəifləməsinə gətirib çıxarır. Bu xüsusda Özbəkistanın enerji sektorunun karbon-neytral səviyyəyə çatdırmaq üçün bir sıra addımlar atması zəruridir. Bu addımlar prioritetlər şəklində şəkil 3-də göstərilmişdir.




**Şəkil 3.** Özbəkistanda enerji sektorunun karbonsuzlaşdırılması prioritetləri (A carbon-neutral electricity sector in Uzbekistan (summary for policymakers))

Şəkil 3 Özbəkistanda enerji sektorunun dekarbonizasiyası üçün mümkün prioritetləri özündə ehtiva edir. Bu prioritetlərin müfəssəl izahı aşağıda göstərilmişdir.

**Transformasiya** – enerji istehsalı infrastrukturunu təbii qaz və kömür istehlakından bərpa olunan enerji mənbələri – külək, günəş, hidroenerjyə transormasiya etməni və eləcə də enerji şəbəkəsi sisteminin müasirləşdirilməsini özündə birləşdirir. Enerjinin ötürülməsində itkilərin qarşısının alınması və enerjidən istifadənin effektivliyinə nail olmaq Özbəkistan üçün zəruri haldır. Ölkədə elektrik enerjisi istehsalı 2020-ci ildə 66.3 milyard kilovat-saat olmuşdur və əgər 2030-cu ilədək əhali artımı və istehlak səviyyəsi nəzərə alınarsa bu göstərici artırılmalıdır. Artıq Özbəkistan rəhbərliyi tərəfindən enerji istehsalı səviyyəsinin 2 dəfədəyək artırılması hökümətin qarşısına hədəf kimi qoyulub. Bu həm də Paris İqlim Sazişinə uyğun olaraq GHG emissiyasının azaldılmasına rəvac verəcəkdir.

**Tənzimləyici çərçivə** – yaşıl enerjidə daxili və xarici investisiyaları hərəkətə keçirmək üçün tənzimləyici hüquqi bazanın yaradılması vacibdir. Bu, enerji effektivliyinə, yaşıl iş yerlərinin yaradılmasına və ən başlıcası ölkənin yaşıl enerjinin inkişafında əhəmiyyətli nailiyyətinə dəstək olacaqdır. İnvestorlara təhlükəsizlik, hüquqi təminat vacibdir.

**Karbon qiymət mexanizmi** – bu prioritet ənənəvi enerji resurslarının subsidiyalaşdırılmasının dayandırılmasını və ölkədə karbon emissiyası standartları və həcminin normalaşdırılmasını ehtiva edir. Enerji istehsalı mənbələrini müasir standarlar əsasında fəaliyyətə sövq etmək ənənəvi resurslarla işləyən müəssisələrin isə artıq açılmasına demotivasiya yaratmaq da prioritetin daxilindədir. Qeyd edək ki, Özbəkistan artıq karbohidrogen enerji növlərinin subsidiyasını azaltmağa başlamış və bununla da növbəti dövrlərdə onu ləğv edəcəkdir.

**Maarifləndirmə** - ictimaiyyəti və maraqlı tərəfləri (stakeholders) yaşıl enerji barədə məlumatlandırmaq və müəyyən fikirlər formalaşdırmaq yaşıl enerjiyə keçiddə çox mühümdür. Həssas təbəqə insanlar üçün güzəştlərin tətbiqi, məsələn, qiymət artımına qarşı kompensasiyalar və ya subsidiya, yaşayış komplekslərində yaşıl enerji qurğularının quraşdırılması və bu qəbildən digər tədbirlərin həyata keçirilməsi yaşıl enerji barəsində fikirləri social cəhətdən qəbul olunan səviyyəyə qaldırar.

**Ətraf mühitin mühafizəsi** – yeni layihələrin ətraf mühit üzərində, xüsusi qorunan ərazilərə təsirlərinin monitorinqinin aparılması zəruridir. Strateji planlaşdırma işlərində ətraf mühitin biomüxtəlifliyin qorunması basilica prioritet olaraq qalacaqdır.

Araşdırma zamanı Özbəkistanın iri yaşıl enerji potensialı və onu realizə edən layihələrə toxunulmuşdur. Bir məqamı da qeyd edək ki, Özbəkistanda yaşıl enerjiyə keçid kontekstində tədqiqatçı-alimlərin xarici nüfuzlu tədqiqat mərkəzlərində və təhsil ocaqlarında təlim-təhsil alması üçün strategiya tətbiq olunacaqdır (Quliyev, 2023). Bütün bu proseslərin fonunda deyə bilərik ki, Özbəkistan yaşıl enerji yolunda uğurla addımlayacaq və yaşıl ölkə statusuna yüksələcəkdir.

## Nəticə

Tədqiqat işi Özbəkistanda karbon emissiya həcmini, emissiya mənbələrini, ölkədə həyata keçirilən enerji layihələrini regionlar üzrə və ən əsası karbon-neytral inkiaşf üçün 5 prioriteti özündə əks etdirir. Araşdırma nəticəsində o nəticəyə gəlinib ki, Özbəkistanın tutduğu iddialı yaşıl iqtisadiyyat, yaşıl enerji yolu uzunmüddətli dövrdə dövlətə böyük səmərə verəcəkdir. Bu xüsusda Özbəkistan üçün aşağıdakı təkliflər məqsədəmüvafiqdir:

-*Yaşıl enerjiyə əsaslanan enerji-səmərəli elektrik stansiyalarının tikintisi;*

-*Enerji stansiyalarının yenidən qurulmaası və modernizasiyası, xüsusilə qoyuluş gücü və enerji istehlakı baxımından səmərəli olması vacibdir;*

-*Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, enerji mənbələrinin şaxələndirilməsi;*

- *Enerji sektorunda müasir texnologiyaların və innovasiyaların tətbiqi (rəqəmsallaşma, istehsal prosesinin avtomatlaşdırılması və* s.).

## Açıqlama bəyanatı

Müəllif (lər) tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir .

**Əlaqə**

**E-mail:** maqsud226@mail.ru

## Ədəbiyyat:

A carbon-neutral electricity sector in Uzbekistan (summary for policymakers), *EBRD*, 29 Jan 2021, 13p.

Adilov K., et al. Uzbekistan Decarbonization Roadmap. Tashkent, Uzbekistan, UKAİD, 2023. 97p.

Dimovska, Matilda. “People and Government of Uzbekistan Take Action to Confront the Climate Crisis Collectively.” *UNDP Climate Promise*, climatepromise.undp.org/news-and-stories/people-and-government-uzbekistan-take-action-confront-climate-crisis-collectively#:~:text=In%20its%20second%20Nationally%20Determined,stated%20in%20the%20first%20NDC.

Kozybay, Zhanaiym. “In Uzbekistan, a Nascent Push for Green Energy.” *The Diplomat*, 13 Oct. 2023, thediplomat.com/2023/10/in-uzbekistan-a-nascent-push-for-green-energy.

Quliyev, Maqsud. “Qazaxıstanın yaşıl ixracı: inkişaf imkanları və problemlər.” *İqtisadi İslahatlar Elmi-Analitik Jurnalı*, vol. 8, №3, 2023, səh. 66–76.

Ritchie, Hannah, et al. “$CO_2$ And Greenhouse Gas Emissions.” *Our World in Data*, 11 May 2020, ourworldindata.org/co2/country/uzbekistan.

Sultanov, Tulkin. *Renewable Energy Projects in Uzbekistan*. 25 May 2023, www.linkedin.com/pulse/renewable-energy-projects-uzbekistan-tulkin-sultanov.

Uzbekistan to cut fossil fuel subsidies and reduce emissions with support from World bank.” *Kun.uz*, Oct. 2023, kun.uz/en/news/2023/10/14/uzbekistan-to-cut-fossil-fuel-subsidies-and-reduce-emissions-with-support-from-world-bank.

Otabaev A. “Uzbekistan’s ‘green’ energy revolution.” *Qatar Tribune*, 1 Oct. 2023, www.qatar-tribune.com/article/85762/world/uzbekistans-green-energy-revolution.

**Məqaləyə istinad:** QULİYEV,Maqsud. Özbəkistanda yaşıl artım: Karbon-neytral inkişafın perspektiv yaşıl prioritetləri.Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 30,2024. s.12-22. DOI: 10.30546/2616-4418.30.2024.012

## SUMMARY

# Green growth in Uzbekistan: Prospective green priorities for carbon-neutral development

**Magsud GULİYEV**
**Azerbaijan Cooperation University , Azerbaijan**

The transition to green energy is the goal set by the countries of the world. In this context, the relevance of the research is the transition of the Republic of Uzbekistan to the widespread use of renewable energy sources. Statistical analysis, comparative analysis methods were used in the article. In Uzbekistan, which is a large gas consumer, most of the energy production is achieved through natural gas. Therefore, the analysis of the total carbon emission by years was carried out, the level of carbon emission per person and the type of energy that causes the largest emission of hydrocarbon resources were investigated. Also, the potential of green energy in Uzbekistan, the state's policy in the field of energy has been reviewed. The green energy projects that are currently under construction in the country, as well as those that are planned to be built with concluded contracts, are professionally shown on the map by regions of the country. The practical significance of the study is that both Uzbekistan and any country planning to transition to green energy can use the priorities necessary to achieve green growth and decarbonization in their strategies and programs.

***Keywords:*** Emission, carbon, GHG, green energy, solar, wind, photo-voltaic

## РЕЗЮМЕ

# Зеленый рост в Узбекистане: Перспективные зеленые приоритеты для углеродно-нейтрального развития

**Магсуд ГУЛИЕВ**
**Азербайджанский Университет Кооперации , Азербайджан**

Переход к зеленой энергетике – цель, которую ставят перед собой страны мира. В данном контексте актуальностью исследования является переход Республики Узбекистан к широкому использованию возобновляемых источников энергии. В статье использованы статистический анализ, методы сравнительного анализа. В Узбекистане, который является крупным потребителем газа, большая часть производства энергии осуществляется за счет природного газа. Поэтому был проведен анализ суммарной эмиссии углерода по годам, исследован уровень эмиссии углерода на душу населения и вид энергии, вызывающий наибольший выброс углеводородных ресурсов. Также рассмотрен потенциал зеленой энергетики в Узбекистане, политика государства в сфере энергетики. Проекты зеленой энергетики, строящиеся сейчас в стране, а также те, которые планируется построить по заключенным контрактам, профессионально показаны на карте по регионам страны. Практическая значимость исследования заключается в том, что как Узбекистан, так и любая страна, планирующая переход к зеленой энергетике, могут использовать приоритеты, необходимые для достижения зеленого роста и декарбонизации, в своих стратегиях и программах.

***Ключевые слова:*** Выбросы, углерод, парниковые газы, зеленая энергия, солнечная энергия, ветер, фотоэлектрическая энергия